# Eyni ildə və eyni gündə doğulan iki dahi

*Yeganə BAYRAMOVA*

Sabah eyni ildə və eyni gündə Azərbaycanın iki dahi bəstəkarının dünyaya göz açdığı gündür. 1885-ci il sentyabrın 18-də görkəmli dirijor, bəstəkar Üzeyir Hacıbəyovun və Azərbaycan klassik musiqisinin təsisçilərindən biri bəstəkar Müslüm Maqomayev anadan olub.

Şuşa qəzasının Ağcabədi kəndində doğulub. Kənd mirzəsi ailəsində doğulan Üzeyirin valideynləri Ağcabədidən Şuşaya köçdükdən sonra ilk təhsilini buradakı ikisinifli rus-türk məktəbində alıb. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Ü.Hacıbəyovun musiqi tərbiyəsinə müstəsna təsir göstərib. Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olub.

O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil alıb. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəyib, skripka və baritonda çalmağı öyrənib. Xalq mahnı nümunələrini nota köçürmək bacarığına yiyələnib. Seminariyanı bitirdikdən sonra Üzeyir Hacıbəyov Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilib.

Ü.Hacıbəyov 1905-1907-ci illər inqilabı ərəfəsində Rusiyadan Bakıya gəlib, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs deyib. 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirib. Dahi bəstəkar bədii yaradıcılığa publisistika ilə başlayıb. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürləri ilə çap olunub. 1908-ci il yanvarın 12-də (yeni üsulla 25-də) Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasının qoyulması da Ü.Hacıbəyovun adı ilə bağlıdır. Operanın librettosu Füzulinin eyni adlı poeması əsasında yazılır. Ü.Hacıbəyov 1909-1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operaların librettosunu xalq dastanları və rəvayətlər, Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdı.



O, "Leyli və Məcnun"dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirdi. O, Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır (komediyalarının mətnini də özü yazıb). Onun "Ər və arvad" (1909, ilk tamaşası: 1910), "O olmasın, bu olsun" (1910, ilk tamaşası: 1911), "Arşın mal alan" (1913) musiqili komediyalarında inqilabdan əvvəlki Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapıb. Ü.Hacıbəyov 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq konservatoriyasında oxuyub. Peterburq dövrü Üzeyir Hacıbəyov yaradıcılığında mühüm rol oynayıb. O, "Arşın mal alan" musiqili komediyasını məhz burada yaradıb. 1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası (librettosu H.İsmayılov və M.S.Ordubadinindir) Ü.Hacıbəyov yaradıcılığının zirvəsini təşkil edir. Azərbaycan opera sənətinin incilərindən sayılan bu operada Üzeyir bəy ilk dəfə olaraq klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər ərsəyə gətirib. Dahi bəstəkarımız 1948-ci ilin noyabrında 63 yaşında dünyasını dəyişib.

Qax rayonunun İlisu kəndində Məhəmməd Abdulun ailəsində dünyaya göz açan Müslüm Maqomayev isə gənc yaşlarında İlisu kəndində dəmirçilik edib, sonralar Vladiqafqaz şəhərinə köçüb. Burada çeçen qızı ilə evlənərək yaşamını davam edib. Ailənin böyük oğlu olan Maqomayev 1912-ci ildən opera dirijorluğu fəaliyyətinə başlayıb.

"Şah İsmayıl" (1916) və "Nərgiz" (1935) operalarının müəllifidir. 1927-ci ildə Maqomayevin redaktəsi ilə "Azərbaycan Türk Xalq Mahnıları"nın ilk məcmuəsi (Üzeyir Hacıbəyov tərəfindən yazılmış və işlənmişdir) nəşr olunub.

M.Maqomayev Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" tamaşalarına musiqi bəstələyib. Üzeyir Hacıbəyli ilə birgə "Azərbaycan türk el nəğmələri" məcmuəsini tərtib edib, 300-dən artıq Azərbaycan xalq mahnı və rəqslərini nota alıb. Onun ən böyük arzularından biri böyük şairimiz Hüseyn Cavidin "İblis" faciəsinə opera yazmaq idi.

O, müğənni, bəstəkar, SSRİ-nin Xalq artisti, mərhum sənətkar Müslüm Maqomayevin babasıdır. Kinorəssam Məhəmməd Maqomayevin atasıdır. Müslüm Maqomayev 1937-ci ildə 52 yaşında Nalçikdə uzun sürən xəstəlikdən sonra vəfat edib.

**Üzeyir Hacıbəyovla Müslüm Maqomayev həm də bacanaq idilər**

Müslüm Maqomayevlə Üzeyir Hacıbəyov eyni ildə və eyni gündə anadan olub. Bundan başqa, Tanrı bu iki sənətkara sanki eyni, qismən oxşar tale bəxş edib. Onlar yalnız sənətdə deyil, həyatda da çox yaxın olublar. Belə ki, ikisi də eyni ailə ilə qohum olub. Hər ikisi ilə yaxın dostluq edən Əli Terequlovun bacıları ilə - Məleykə xanımla Üzeyir bəy, Badigülcəmal xanımla Müslüm Maqomayev ailə qurub.